# “Yoxlama və metroloji attestasiya məqsədi ilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında” 1995-ci il 10 fevral tarixli Sazişə dəyişikliklər edilməsi barədə Protokolun təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

“Yoxlama və metroloji attestasiya məqsədi ilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında” 1995-ci il 10 fevral tarixli Sazişə dəyişikliklər edilməsi barədə 2007-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Protokol təsdiq edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 sentyabr 2009-cu il.
№ 876-IIIQ

**" Yoxlama və metroloji attestasiya məqsədi ilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında" 1995-ci il 10 fevral tarixli Sazişə dəyişikliklər edilməsi barədə**

## PROTOKOL

" Yoxlama və metroloji attestasiya məqsədi ilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında" 1995-ci il 10 fevral tarixli Sazişin (bundan sonra - Saziş) iştirakçısı olan dövlətlərin hökumətləri

aşağıdakılar barədə razılığa gəldilər:

1. Sazişə aşağıdakı dəyişikliklər etmək:

1.1. Sazişin adında "yoxlama" sözündən sonra "kalibrləmə, tutuşdurma' sözləri əlavə edilsin.

1.2. Preambulanın üçüncü abzasında "istehsalı, yoxlanması" sözlərindən sonra "kalibrlənməsi, tutuşdurulması" sözləri əlavə edilsin.

1.3. 2-ci maddədə "yoxlama" sözündən sonra "kalibrləmə, tutuşdurma" sözləri əlavə edilsin.

1.4. 5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Hazırkı Saziş, depozitariyə - Müstəqil Dövlətlər Birliyinin İcraiyyə komitəsinə qoşulma haqqında sənədlərin təqdim edilməsi yolu ilə standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin həyata keçirilməsi haqqında 1992-ci il 13 mart tarixli Sazişin iştirakçısı olan digər dövlətlərin qoşulması üçün açıqdır".

1.5. Növbəti maddələrin nömrələnməsini müvafiq olaraq dəyişdirməklə Sazişə aşağıdakı redaksiyada 7-ci maddə əlavə edilsin:

"Hazırkı Sazişə, Tərəflərin qarşılıqlı razılığı ilə, onun ayrılmaz hissəsi olan ayrıca protokol ilə rəsmiləşdirilən dəyişikliklər edilə bilər".

2. Hazırkı Protokolun təfsiri və tətbiqi ilə bağlı mübahisələr və fikir ayrılığı, Tərəflər digər halı razılaşdırmadıqda, danışıqlar və məsləhətləşmələri yolu ilə həll edilir.

3. Hazırkı Protokol, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların dövlətlər tərəfindən yerinə yetirilməsi haqqında üçüncü yazılı bildirişin depozitariyə saxlanması üçün verildiyi tarixdən qüvvəyə minir.

Aşqabad şəhərində 2007-ci il noyabrın 22-də bir əsl nüsxədə rus dilində imzalanmışdır. Əsl nüsxə hazırkı Protokolu imzalamış hər bir dövlətə onun təsdiq edilmiş surətini göndərməli olan Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır.

**Azərbaycan Respublikası Hökuməti**
**adından**
**imza**
**Ermənistan Respublikası Hökuməti**
**adından**
**imza**
**Belarus Respublikası Hökuməti**
**adından**
**imza**
**Gürcüstan Hökuməti**
**adından**
**Qazaxıstan Respublikası Hökuməti**
**adından**
**imza**
**Qırğızıstan Respublikası Hökuməti**
**adından**
**imza**

**Moldova Respublikası Hökuməti**
**adından**
**imza /qeyd-şərtlə /**
**Rusiya Federasiyası Hökuməti**
**adından**
**imza**
**Tacikistan Respublikası Hökuməti**
**adından**
**imza**
**Türkmənistan Hökuməti**
**adından**
**Özbəkistan Respublikası Hökuməti**
**adından**
**imza**
**Ukrayna Hökuməti**
**adından**
**imza**